## RƏHMAN BAYRAM



### ANA

Ömründən pay verər, böyüyə deyə,
Dilimin ən ilkin kəlməsi ana.
Laylası ruhumu qaldırıb göyə, indi
Allahın sevimli bəndəsi ana.

Övlad üçün yada boyun əyənim,
Dindirəndə hər kəsə can deyənim,
Gülə-gülə kədərdən don geyənim,
Könlümün şən həzin nəğməsi ana.

Sevinci az, dərdi bir ümman olan,
Qurban kəsməz, balaya qurban olan,
Zülmə haqsızlığa üsyankar olan
Zamanın dövranın haqq səsi ana.

Kamanam, zilim də bəmim də sənsən,
Bir dünya sevincim,qəmim də sənsən,
Rəhmanam, ruhum da, qəlbim də sənsən
Quranın müqəddəs haqq ayəsi ana.

### ATA

Halallıq nişanı o alın tərin,
Geydiyin qaloşun zığı, palçığı
Mənliyi olmayan çox kişilərin,
Kirli vicdanından təmizdi, ata.

Yadların könülsüz məhəbbətindən,
Təmənnalı zəngin səxavətindən,
Özgənin ağıllı məsləhətindən,
Bir quru tənbehin əzizdi, ata.

Rəhmanam, ruhuma çiləndin nur tək,
Sanki gözlərimə göründü mələk
Halal yedirtdiyin o yavan çörək,
Mənə hər nemətdən ləzizdi, ata.

### TORPAQ DA PISLƏRDƏN BEZIB, DEYƏSƏN...

Torpaq da pislərdən bezib deyəsən,
Hərdən yaxşıları aparıb gedir.
Sevib-seçdiyin baxmır yaşına.
Canımızdan bir can qoparıb gedir.

Köz mehdən qızarar, yanaq həyadan,
Sərçə koldan uçar,qartal qayadan,
Adam var,tez bezir fani dünyadan,
Haqqın dünyasına yalvarıb gedir.

Ucal qeyrətinlə,varsa hünərin.
Dayaq ol millətə bilinsin yerin.
Yaşatsın bəşəri xoş əməllərin,
Desinlər,dünyanı qurtarıb gedir.

### KAŞ, ONLAR SAĞ OLAYDI

Kaş, anam sağ olaydı.
Öpüb, sığallayaydım
Dən düşən tellərini.
Kaş, anam sağ olaydı,
Əyiləydim, öpəydim
Qabarlı əllərini.

Kaş, atam sağ olaydı,
Məktəb xərcliyi üçün
Dolanaydım başına.
Kaş, atam sağ olaydı,
Çıxmayaydım sözündən
Gəlmək üçün xoşuna.

Kaş, anam sağ olaydı,
Səhvi üstə uşaq tək,
Danlayaydı yenə də.
Kaş, anam sağ olaydı,
Arzumu baxışımdan
Anlayaydı yenə də.

Kaş, atam sağ olaydı,
Bircə təbəssümünə
Bu,dünyanı verəydim.
Kaş, atam sağ olaydı,
Yuyub ayaqlarını
Əllərimlə silərdim.

Kaş, anam sağ olaydı,
Alaydı qucağına
Ovudaydı nağılla.
Kaş, anam sağ olaydı,
Varlığımla sevəydim
Qoruyaydım ağılla.

Kaş, atam sağ olaydı,
Söykənəydim o dağa
Dərd nədi bilməyəydim.
Kaş, atam sağ olaydı,
Qəm çökəndə üzünə
Danışıb gülməyəydim.

Kaş, anam sağ olaydı,
Geyindirib formamı
Məktəbə göndərəydi.
Kaş, anam sağ olaydı,
Dözüb dəcəlliyimə
Can deyib dindirəydi.

Kaş, onlar sağ olaydı,
Kəsiləydi ömrümdən
Calanaydı ömrünə.
Kaş, onlar sağ olaydı,
Qayğısız yaşayaydım
Şükr edəydim hər günə.